Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 45 saylı Abşeron seçki dairəsindən Masazır bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mustafayev Rəhim Xıdırnəbi oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 dekabr 2014-cü il tarixli 17 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 6 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 45 saylı Abşeron seçki dairəsindən Masazır bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mustafayev Rəhim Xıdırnəbi oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 dekabr 2014-cü il tarixli 17 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 45 saylı Abşeron seçki dairəsindən Masazır bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mustafayev Rəhim Xıdırnəbi oğlu 5 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək onun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının əsassız olduğunu bildirmiş və bununla əlaqədar qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma prosesində müəyyən olunmuşdur ki, dairə seçki komissiyası tərəfindən R.X.Mustafayevin namizəd kimi qeydiyyatından imtinaya dair 26 noyabr 2014-cü il tarixli 28/101 saylı qəbul olunmuş qərar həmin gün dairə seçki komissiyasının məlumat lövhəsindən asılmaqla dərc

edilmiş və qərarın surəti 28 noyabr 2014-cü il tarixdə şikayətçiyə verilmişdir.

Müraciətin məzmunundan və 45 saylı Abşeron seçki dairəsi dairə seçki komissiyası sədrinin izahatından görünür ki, R.X.Mustafayev dairə seçki komissiyasının müvafiq qərarının qəbul edilməsi barədə məlumatlı olmuş və şikayəti şikayətvermə müddətinin ötürülməsi ilə təqdim etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

İddia edilən qanun pozuntularından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciət mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4.1.2-ci, 6-cı və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 45 saylı Abşeron seçki dairəsindən Masazır bələdiyyəsi üzrə qeydə alınmamış namizəd Mustafayev Rəhim Xıdırnəbi oğlunun 5 dekabr 2014-cü il tarixli 17 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev